**Məmmədova Səkinə Aydın q.** [139]

# SATİRİK GÜLÜŞ

**Giriş.**Cəlil Məmmədquluzadə Azərbaycan nəsrində və drammaturgiyasında tənqidi gülüşün inkişafında xüsusi əhəmiyyətə malikdir. Ədib nəsrdə və drammaturgiyada tənqidi gülüşün müxtəlif orijinal klassik nümunələrini yaratmışdır. Bu cəhətdən onun "Dəli yığıncağı" komediyası xüsusilə diqqəti cəld edir. İlk növbədə əsərin adı kəskin ittiham xarakteri daşıyır. Əsərdə bəhs olunan ictimai mühit kəskin satira ilə dəli yığıncağı adlandırılmışdır. Bütün əsər boyu həmin cəmiyyətdə dəlilər və ağıllılar dileması qarşılaşdırılır. Əslində feodal patriarxal cəmiyyətdə kimlərin ağıllı və kimlərin dəli hesab olunması əsər boyu müqayisə olunur, qarşılaşdırılır.

**Əsas hissə.**"Dəli yığıncağı" komediyasındakı gülüş arxasında müəllifin dərin ürək ağrıları təəssüf və qəzəbi aşkar hiss olunur. Ədib dəli adlanan gənclərin taleyinə dərdli yumorla gülür. Onların yaşadığı cəmiyyətin mürtəce mahiyyətini bütün eybəcərliyi ilə açıb göstərməyə çalışır. Eyni zamanda bu əsərdə həm yalançı ruhanilərin,həm də cəmiyyəti idarə edən hakim təbəqələrin gülünc xarakteri və mahiyyəti sərrastlıqla tənqid edilir. Əslində bu əsərdə məhz ağıllıların dəlilər cəmiyyətindəki müsibətləri, faciələri sərrast komik vəziyyətlərdə, əyani sürətdə nümayiş olunur, kəskin tənqid edilir. Əsərin qəhrəmanı Molla Abbasın "möminlər möminləri" istehzalı gülüşlə ifşa etməsi əsərdə qüvvətli ideya yekunu kimi səslənir. Əslində Molla Abbasın ifşa və ittihamlarında eyni zamanda ədibin vətəndaş kədəri ittihamı da qüvvətli şəkildə diqqəti cəld edir.

Hakim Həzrət Əşrəf müstəmləkə aləminni xarakterik nümayəndələrindən biridir. O, əvəzsiz ixtiyar sahibidir, hakimi mütləqdir. Heç kim onun bir sözünü iki edə bilməz. Hətta yerli əhalinin ən mötəbər, ən varlı adamları belə onun qarşısında tir-tir əsir. Həzrət Əşrəf əsarət altında saxladığı əhalini saymır, onların dilinə, milli varlığına həqarətlə baxır. Heç bir şeydən çəkinmədən xalqa öz doğma ana dilindədanışmağı qadağan edir. Həzrət Əşrəfin müavini hacı Nayibin qorxa-qorxa camaata dediyi sözlər bu müstəmləkəçi ağanın xarakterni cox yaxşı açır: "hacılar... and verirəm sizi uzun qollu həzrət Abbasa, əkər mümkünsə türkcə danışmayaq, çünki Həzrət Əşrəfin mənə qeyzi tutur"[5, s.527].

Yerli əhalinin dilini bilməmək bir hakim kimi Həzrət Əşrəfi qətiyyən narahat etmir. Onun bu dili örənməyə ehtiyacı da yoxdur. O, bütün işlərini əmrlə, çığır bağırla görür. Həzrət Əşrəf istədiyinə çoxdan nail olmuşdur. Məclisə toplanmış hacılar nəinki bu müstəmləkəçi ağanın bütün əmrlərini itaətkarlıqla yerinə yetirməyə hazırdılar, həm də onun hüzurunda heç vaxt danışmamağa, həmişəlik lal, kar olmağa söz verirlər.

Məmmədquluzadə sözü ilə işi, əməlləri arasında böyük uçurum olan bu hakimi ustalıqla ifşa edir. Bir qədər əvvəl xalqa öz ana dilində danışmağı qadağan edən həzrət Əşrəf indi məmləkətin abadlığından, əhalinin rahatlığı və səadətindən dəm vurur. O, "Əmristan"dan gəlmiş doktor Lalbyuzu da bu işdən ötəri məclisinə çağırmışdır. O, bu adamdan istifadə etmək, özünü xalqın gözündə böyütmək, daha xeyirxah, insanpərvər bir hakim kimi tanıtmaq istəyir. Lalbyuzun gəlişi ona yeni bəhanələrlə xalqı soymaq, onların ciblərini boşaltmaq imkanı vermişdir. Həzrət Əşrəf öz gizli, üstüörtülü planlarını həyata keçirmək üçün şəhərdə dəlixana tikdirmək niyyətinə düşür. Bununla da o, bir oxla iki dovşan vurmaq, həm doktor Lalbyuzun işini düzəltmək, onun hörmətini qazanmaq, həm də özü küllü miqdarda mənfəət götürmək imkanı əldə edir.

Hər yerdə Həzrət Əşrəfin iradəsi və tapşırığı ilə hərəkət edən hacı Nayib doktor Lalbyuzu məclisə toplaşmış tacirlərə təqdim edərkən öz ağasının da niyyətlərini açıb söylənir: "İnsaf və mürüvətdən uzaq olar, əgər biz doktor cənablarının şəhərimizə təşrifini qənimət saymayaq. Həzrət Əşrafin iradəsi bu yerdə qərar tutub ki, bundan sonra şəhərimizdə bir nəfər də dəli və divanə küçə bazarda sərgərdan dolanmasın və doktor cənabları o biçarələr üçün bir məkan qarar verib onların müalicəsinə məşğul olsun... Belə bir iqdamatın iki qism gözəl nəticəsi ola bilər: biri budur ki, şəhərimizin küçələrindən dəliləri rədd etməklə vilayətimizin abadlığı yolunda təlaş etmiş olarıq ki, bu özü bizim ücün müqəddəs bir vəzifədir, iknicisi də budur ki, o bəxtiqara dəlilərin xeyir-duasının feyzi bizim özümüzə də kifayət edər, valideyinimizə də kifayat edər və abavu acdadımıza da kifayət edər"[5, s.536].Xalqa abadlıq, xeyirxahlıq vəd edən bu sözləri eşidən hacılar çox asanlıqla tora düşür. Onlar işin dalını düşünmədən həzrət Əşrəfin fikirlərini təqdir edir, ona canla başla tərəfdar olduqlarını bildirirlər. Onlar doktor Lalbyuzun ruhi xəstələri müalicə edəcəyini eşitdikdə təəccüblənirlər. Çünki Lalbyuz yerli əhalinin dilini bilmir, onun mənəviyyatından, ruhundan büsbütün xəbərsizdir. Dil və ruh məsələsi haqqında hacılar arasında başlanan mübahisə olduqca mənalıdır və bir çox gizli mətləblərin üstünü açır. Hacıların etirazından daha çox giley-güzarı xatırladan fikirlər "Dəli yığıncağı" əsərinin əsas ideyasını, məzmununu, hansı ictimai dərdlərə toxunluduğunu aydınlaşdırır. "Xalqın siyasi, hüquqi, mənəvi ağası olan adamlar onun dilinə, ruhuna yaddır. Onların arasında

[139] **Bakı Dövlət Universitetin tələbəsi.** snmmmdova09@gmail.com. https://orcid.org/0009-0003-5139-7386

dərin uçurum, barışmaz ziddiyyət vardır. Onların münasibətləri mənəvi yaxınlıq, qarşılıqlı ünsiyyət, etimad, insani əlaqələr əsasında deyil, zor, təziq, milli təhqir və qarət üzərində qurulmuşdur. "Dəliyığıncağı" əsərində zahirən sakit görünən, əslində olduqca gərgin, barışmaz olan dramatik konflikt də buradan başlanır, tədricən böyüyür, əhatə dairəsi və ictimai məzmunu genişlənir, nəhayət bütöv bir ölkənin, millətin faciəsini əks etdirir"[4, s.78].

Həzrət Əşrəfin tədbirlərini alqışlayan, doktor Lalbyuzu tərifləyib göyə qaldıran möminlər hacı Nayibin yeni məlumatını eşitdikdə hər şeyi unudur, bərk təşvişə düşürlər. Burada həzrət Əşrəfin əsil niyyəti açılır. Məlum olur ki, onu şəhərdəki dəlilərin taleyi deyil, hacıların pulu maraqlandırır. İşin nə yerdə olduğunu başa düşən tacirlər dərhal əvvəlki sözlərini geri götürür, qorxa-qorxa olsa da bu işə öz etirazlarını bildirirlər. Onlar hacı Nayibə, doktor Lalbyuza yalvarırlar ki, dəlixana tikdirmək fikrindən əl çəksinlər. Hacılar müxtəlif bəhanələrə al atır, heç cür pullarını vermək istəmirlər.İş bərkə düşəndə onlar dəlilərin varlığını danır, "bizim şəhərdə dəli yoxdu" deyə and-aman içirlər. Hacılara görə dəliləri müalicə etdirmək mənasız işdir, çünki "o biçarə dəlilərin ağlını alan o gözə görünməyən pərvardigari-aləmdir ki, öz yaratdığı bəndəyə lazım olan yerdə ağlı verir də, alır da"[5, s. 539]. Hacı Nayib isə tacirlərin gətirdiyi bəhanələri eşitmək belə istəmir. Çarasiz qalan hacılar dillərini belə başa düşməyən, təəccüblə onlara baxan doktor Lalbyuza müraciət edir, onu yola gətirməyə çalışırlar: "Ay həkim, axı bu dəlixana söhbəti nə bir söhbətdi ki, bunun üstə özünüzə də, bizə də bu qədər dərdi-sər verirsiniz? Biz eşitdiyimiz budur ki, dəliliyin bir səbəbi var. Bu bir bəladır, bu bir qismətdir ki, hər bir yaranmış ki, bu dərdə mübtəla olur, gərəkdir ki, tutduğu işin müqabilində cəzasını çəksin. Bunun çarəsi "Çövşəni kəbr", ya "Çövşəni səğir" duasıdır ki, yazıb tikirlər dəlinin paltarına, özü də gərək sol qoluna tikilsin"[5, s.541].

Böyük satira ustası olan Cəlil Məmmədquluzadə hacıları öz əməlləri fonunda, onların daxili məzmunundan çıxış edərək ifşa edir. Burada ədib təkcə hakim Həzrət Əşrəfin işğalçı təbiətini deyil, həm də yerli əhalnin mötəbər, başbilən adamları sayılan varlı hacıların satqın, riyakar xarakterini açır. Öz şəxsi mənafeləri xatirinə xalqı da, vətəni də satmağa hazır olan bu məsləksiz adamlar nə qədər atılıb düşsələr də Həzrət Əşrəfin iradəsi, hökmü qarşısında dayana bilmirlər. Onlar ağa nökəridirlər. Hacılar xalqı soymaqda sərbəst olsalar da onların ciblərinin ixtiyarıHəzrət Əşrəfin əlindədir. Həzrət Əşrəf ağalıq etliyi ölkədə ancaq bir ifadə öyrənmişdir. Bu da pul sözündən ibarətdir. Onun bütün işi, əməli, fəaliyyəti bu sözün üstündə qurulmuşdur. O, böyük bir ölkəni bu sözlə idarə edir, bu sözlə çapıb-talayır. Bu söz Həzrət Əşrəfli müstəmləkəçi, işğalçı siyasətinin ümumi məzmununu, mahiyyətini təşkil elir. Böyük ümumiləşdirmə bacarığına malik olan Cəlil Məmmədquluzadə hakimiyyət, istismar, zor rəmzi olan pul sözünün fonunda Həzrət Əşrəf kimi xarakter, yadda qalan bir obraz, tip yaratmışdır.Cəlil Məmmədquluzadə dinlə, cəhalətlə ittifaqa girib xalqın qanını soran Həzrət Əşrəfin şəxsiyyətini, xarakterini, siyasi simasını hərtərəfli ifşa etdikdən sonra bizi yeni hadisələrlə, tiplərlə tanış edir. Meydanda doktor Lalbyuz və onu müşayiət edən, qoruyan əli qamçılı fərraş Şimrəli qalır.Lalbyuz "Əmristan"dan kəlmişdir. Doktor Lalbyuzun işi, fəaliyyəti daha çətin, daha böyükdür. Lalbyuz bütün xalqın dərdini öyrənmək, ruhunu, qəlbini müalicə etmək, onu mənəvi bəlalardan, əzablardan xilas etmək iddiasına düşmüşdü.Lakin onun görmək istədiyi işlərin zahiri ilə daxili məzmunu, mahiyyəti arasında tam ziddiyyət vardır. Bu ziddiyyətin birinci və əsas səbəbi odur ki, doktor Lalbyuz dərdinə əlac etmək istədiyi xalqı tanımır. Onun ruhundan, mənəvi aləmindən, milli xüsusiyyətlərindən, ictimai faciələrindən tamamilə xəbərsizdir. O, bütün varlığı ilə bu aləmə yad bir adamdır. Doktor Lalbyuzun bu xüsusiyyətini Həzrət Əşrəfin hüzuruna toplaşmış tacirlər də etiraf edir. Xüsusilə hacı Məhəmmədəlinin sözləri bu cəhətdən çox xarakterikdir: "And olsun Allaha, mən ona təəccüb eləyirəm ki, bu zalımın oğlu bizim dili bilməyə bilməyə dəlilərə necə müalicə edəcək? Genə özgə azar ola, genə bilməsə də o qədər də eybi yoxdur. Amma hacı Nayib ağa buyurmuş kimi, burada dəlinin əhvalını yoxlamaq məsələsi var..."[5, s.526]

Doktor Lalbyuzun hər yerdə lüğətlə gəzməsi təsadüfi deyildir. Bu, onun ruhunu müalicə etmək istədiyi xalqa qarşı olan etinasız, təhqiramiz münasibətini ifadə edir. Onu xalqın taleyi, dərdi, ehtiyacları deyil, öz şəxsi mənafeyi maraqlandırır. O, dəlixana tikdirmək bəhanəsilə tacirlərin, hacıların ciblərini soyur, əlinə lazımi qədər pul keçdikdən sonra "işə" başlayır.Doktor Lalbyuz ümumləşdirilmiş obrazdır. Onun "Dəli yığıncağı"nda xüsusi yeri var. Əsərdə bütün hadisələrin inkişafına və aydınlaşmasına daha çox o təkan verir. "Ölülər də Şeyx Nəsrullahın gəlişi fanatiklər mühitinin bütün eybəcərliklərini üzə çıxartdığı kimi, "Dəli yığıncağı"nda da Lalbyuzun təşrifi dinin və müstəmləkə ağalığının qurbanı olan mömin hacılar aləmini çürüdən yaraları açıb meydana qoyur. Doktor Lalbyuz istismarçı ideologiyanın təmsilçisi olmaqla bərabər, həm də Cəlil Məmmədquluzadənin tənqidi, ifşaçı məramına xidmət edən bir obrazdır[2, s.287].Ədib "Dəli yığıncağı"nda qoyulmuş və əsərin əsasını təşkil edən "əsil dəli kimdir?" sualına ən çox onun vasitəsilə cavab verir. Doktor Lalbyuz kimliyindən və istəyindən asılı olmayaraq həqiqəti üzə çıxartmalı olur.Həzrət Əşrəfin tapşırığı ilə fəaliyyətə başlayan Lalbyuz uzun müddət çaşıb qalır. Düşdüyü mühitdə kimin dəli, kimin ağıllı olduğunu təyin edə bilmir. Şəhərin ağıllı, mötəbər nümayəndələri sayılan tacirlərin, hacıların, ruhani başçılarının işləri, hərəkətləri onu daha çox təəccübləndirir. O, bu adamlarla qarşılaşdığı ilk dəqiqələrdən qəribə, anlaşılmaz hadisələrin şahidi olur.

Lalbyuz onunla görüşdükdən sonra əllərini havada saxlayan, gözlərini göyə axıdıb həmişə dodaqaltı nə isə pıçıldayan, bəhanədən başına döyüb ağlayan, azan səsini eşidəndə əllərindəki işi atıb salavat çevirən, ölülərin sümüklərini ata yükləyib harasa aparan mömin hacıların az-çox şüur, idrak sahibi olduqlarına heç çür inana bilmir. Lakin doktor Lalbyuz ona dəli kimi təqdim olunan adamların ağzı dualı fanatiklərdən qat-qat üstün, ağıllı olduğunu başa düşür. Cəlil Məmmədquluzadə doktor Lalbyuzdan bir bədii vasitə kimi istifadə etsə də onu axıra qədər ifşa etməyi unutmur. Ədib bu yalançı "pəhləvanın" şəxsində əsarətdə və cəhalətdə qalan xalqlara mənəvi

nicat vəd edən ağalara gülür, onların əsil simalarını, riyakar təbiətlərini açıb meydana qoyur. Burada böyük humanist olan Cəlil Məmmədquluzadənin kinayəsi, nifrəti kəskin, öldürücü məzmuna malikdir.

"Dəli yığıncağı" iki qütblü tənqid hədəfinə malik bir əsərdir. Bu qütblərin bir tərəfində işğalçı, istismarçı dairələri təmsil edən doktor lalbuyuzlar, həzrət əşrəflər, digər tərəfində isə nadanlığın, cahalətin dərin kök saldığı, daxilən çürümüş fanatiklər aləmi durur. Fanatiklər aləmi də öz-özlüyündə iki zidd cəbhəyə "ağıllılar" və "dəlilər" cəbhəsinə bölünmüşdür[1, s.47].Üzdən ağıllı görünən, idrak, mərifət sahibi sayılan, özlərinə oxşamayanları dəli hesab edən fanatiklərin, mömin hacıların ən mötəbər nümayəndəsi Fazil Məhəmməddir. O, bütün dindarların mənəvi rəhbəridir. Bu həmin Fazildir ki, hakim Həzrət Əşrəfin göstərişilə xalqın şəriət işləri tamamilə ona tapşırılmışdır. Fazil Məhəmməd Cəlil Məmmədquluzadənin xarakterinə, mənəvi aləminə, ağıl və idrakına çox yaxşı bələd olduğu, əsərlərnidə ifşa etdiyi ruhani tiplərindəidir.

Cəlil Məmmədquluzadə Fazil Məhəmmədin şəxsində dinin, ruhaniliyin yeni, daha iyrənc, daha faciəli cəhətlərini əks etdirmişdir. Hərgah Şeyx Nəsrullah camaatın qızlarını, dul qadınları özünə siğə elətdirirdisə, fırıldaqlarını işlətdikdən sonra aradan çıxırdısa, Fazil Məhəmməd kəbinli, ərləri sağ arvadların siğəsini oxuyur, heç kimdən çəkinmədən açıq şəkildə əxlaqsızlıq təbliğ edir, cəhalət yayır.

Məlum olur ki, üzdə abır həyadan dəm vuran, müqəddəs mömin donuna bürünmüş Fazil Məhəmməd öz böyük qardaşı Şeyx Nəsrullah kimi əxlaq düşkünüdür. O da əxlaqsızlığa rəvac vermək, onu qanuniləşdirmək üçün dindən, Allahın adından istifadə edir, şəriət ehkamlarına arxalanır. Fazil yaxşı bilir ki, onunla həmsöhbət hacıların, möminlərin ciblərinin, var-dövlətlərinin ağası həzrət əşrəflərdirsə, qəlblərinin, ağıl və hisslərinin sahibi Allah, peyğəmbər və imamlardır. Bu adlardan istifadə edən mömin müsəlmanların başına istənilən oyunu gətirmək olar. Bu adların qabağında ağıl, namus, əxlaq, cəsarət, ləyaqət kimi yüksək insani keyfiyyətlər, insani sifətlər puç olur, öz əhəmiyyətini, qiymətini itirir.Buna görə də Fazil Məhəmməd əvvəlcə imamın zühuru xəbərilə adamların ürəyini ələ alır, hisslərini coşdurur, sonra isə əsil mətləbə keçir, gizli niyyətlərini həyata keçirməyə başlayır. Bu işin imam yolunda böyük xidmət olduqundan, "intəhasız savabından" danışır. Hətta, şəhərdəki "dəlilər"in nicatının da ancaq bu işdən asılı olduğunu bildirir. Cavan qardaşı arvadı Sonaya sahib olmaq istəyən Fazil Məhəmməd özünə yol açmaq üçün əvvəlcə başqa "dəlilər"in arvadlarını qabağa verir. Onların siğələrini oxuyub kəcavələrə əyləşdirir. Bundan sonra "məlumdur ki, bu vilayətdə hamıdan artıq dəliliyilə şöhrət qazanan mənim bədbəxt bəradərim dəli Molla Abbasdır ki, onun biçarə övrəti Pırpız Sonanı Həzrətin ziyarətinə aparmaq zəhməti mənim öhdəmə mühəvvə olunubdu" deyə öz çirkin, riyakar planını ustalıqla başa çatdırır, əxlaqsızlığa şəriət adı ilə haqq qazandırır.Gördüyümüz kimi "Dəli yığıncağı"nda təsvir olunan ağzı dualı möminlər, zahirən ağıllı hesab olunanlar içərisində Fazil Məhəmməd birinci dəli, fanatik və cəhalətpərəstdir. Onun təkcə mənəviyyatı deyil, ağlı da çürükdür, iyrəncdir.

**Nəticə.** Tənqidi gülüşün müxtəlif formaları Cəlil Məmmədquluzadə yaradıcılığında müəllif fikrinin əsas istiqamətləndiricisidir. Xüsusilə müxtəlif məzmunlu kinayələr Cəlil Məmmədquluzadə yaradıcılığında çox fəal iştirak edir. Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" komediyasında satirik gülüş əsas etibarilə istismarçı tüfeyli təbəqələrin ittihamına istiqamətlənmişdir. Ədib satirik gülüş vasitəsilə cəmiyyəti dəli yığıncağına çevirmiş istismarçı təbəqələri ifşa və ittiham etmişdir. Cəlil Məmmədquluzadə Həzrət Əşrəflərin, Lalbyuzların həm ciblərni soyduqları, həm da xalqa qarşı mübarizədə istinad etdikləri hacıları, tacirləri məharətlə ifşa edir, onların boş, məzmunsuz, ikiüzlü təbiətlərini açıb göstərir. Cəlil Məmmədquluzadə hacıları öz əməlləri fonunda, onların daxili məzmunundan çıxış edərək ifşa edir.

***İstifadə edilmiş ədəbiyyat***


1.Əlimirzəyev, X. Dramaturgiya, teatr və səhnə sənəti. Bakı. Nurlan. 2004, 186s

2.Əliyeva, Ş. Azərbaycan tənqidi realizminin tarixi parametrləri Cəlil Məmmədquluzadənin tale salnaməsində //"Filologiya məsələləri" jurnalı, 2018, № 9, s. 281-292

3.Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə mühiti və müasirləri. Naxçıvan, Əcəmi, 2009, 424s.

4.Vahabova, S. Cəlil Məmmədquluzadə nəsrinin poetikası. Bakı: 2013, 164 s.

5. Məmmədquluzadə, C. Əsərləri, altı cilddə. I cild. Bakı: Öndər Nəşriyyat, 2004, 664 s.


## SATIRIC LAUGHTER

### Summary


Jalil Mammadguluzadeh has a special importance in the development of critical laughter in Azerbaijani prose and dramaturgy. The writer has created various original classical examples of critical laughter in prose and dramaturgy. In this regard, his comedy "The Madmen Gathering" is particularly noteworthy. First of all, the title of the work is sharply accusatory. The social environment discussed in the work is called the Mad Meeting with sharp satire. Throughout the work, the dilemma of the mad and the intelligent in that society is confronted. In fact, who is considered intelligent and who is considered insane in a feudal patriarchal society is compared and contrasted throughout the work.Various forms of critical laughter are the main guide of the author's thought in Jalil Mammadguluzade's work. In particular, sarcasms with various contents are very actively involved in Jalil Mammadguluzade's work. In Jalil Mammadguluzade's comedy"The Madmen Gathering", satirical laughter is mainly directed at the accusation of exploitative and scheming classes. Through satirical laughter, the writer exposed and accused the exploitative classes that turned society into a mad gathering. Jalil Mammadguluzade skillfully exposes the pilgrims and merchants whose pockets the

Hazrat Ashrafs and Lalbyuzs both robbed and relied on in their fight against the people, revealing their empty, meaningless, hypocritical nature.

***Keywords:***critical laughter, Jalil Mammadguluzadeh, "The Madmen Gathering", Hazrat Ashraf, Lalbyuz

## САТИРИЧЕСКИЙ СМЕХ

### Резюме

Особое значение в развитии критического смеха в азербайджанской прозе и драматургии имеет Джалил Мамедгулузаде. Адиб создал различные оригинальные классические образцы критического смеха в прозе и драме. В этом отношении особенно примечательна его комедия «**Безумная** ассамблея». Прежде всего, название произведения носит острый обвинительный характер. Социальная среда, описанная в произведении, названа сборищем сумасшедших с острой сатирой. На протяжении всего произведения в этом обществе сталкивается дилемма сумасшедших и здравомыслящих людей. Фактически, на протяжении всего произведения сравнивается и противопоставляется, кого считают умным, а кого сумасшедшим в феодально-патриархальном обществе. Различные формы критического смеха являются основным проводником авторского взгляда в творчестве Джалила Мамедгулузаде. В частности, в творчестве Джалила Мамедгулузаде очень активно задействованы сатиры различного содержания. Сатирический смех в комедии Джалила Мамедкулизаде «**Безумная** ассамблея» направлен главным образом на обвинение эксплуататорских зажиточных классов. Сатирическим смехом Адиб разоблачал и обвинял эксплуататорские классы, превратившие общество в безумное собрание. Джалил Мамедгулузаде умело разоблачает паломников и торговцев, которых Хазрат Ашрафс и Лалбюз использовали для грабежа карманов и борьбы с народом, обнажая их пустую, бессодержательную и лицемерную натуру.

***Ключевые слова:***критический смех, Джалил Мамедгулузаде, «**Безумная** ассамблея», Хазрат Ашраф, Лалбюз

**RƏYÇİ: dos. S.Abbasova**